


*1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü bütün dünyada olduğu kimi, hər il Azərbaycanda da qeyd edilir. Müasir dövrdə uşaq hüquqlarının səmərəli təmini, müdafiəsi və təbliği hər bir dövlətin və bütövlükdə cəmiyyətin inkişafını şərtləndirən mühüm faktorlardan biridir. Gələcəyimiz olan uşaqların hüquqlarının müdafiəsinə, onların hərtərəfli inkişafına nail olmaq dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdəndir.*

# Uşaqların hüquqlarının müdafiəsi dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdən biridir

Uşaqların beynəlxalq səviyyədə müdafiəsi üçün 1950-ci il iyunun 1-də BMT-nin Baş Assambleyası qərar qəbul edib. Bundan sonra 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb.

BMT-də uşaq hüquqlarına dair konvensiya qəbul edilib. Azərbaycan da müstəqilliyini bərpa etdikdən sonra bu konvensiyaya qoşulub. Bütün demokratik dövlətlərdə olduğu kimi, ölkəmizdə də uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Yəni onların sağlam, hərtərəfli, vətənə layiqli övladlar kimi böyümələri üçün hər cür şərait yaradılıb. Təbii ki, uşaq hüquqları da insan haqlarının ən mühüm və ayrılmaz hissələrindən biridir.

Azərbaycan Respublikasının Konstitusiyasında, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasında, habelə ölkəmizin tərəfdar çıxdığı bir sıra digər beynəlxalq müqavilələrdə uşaqların hüquqlarının müdafiəsi ilə bağlı mühüm normalar təsbit edilib ki, onların da həyata keçirilməsinə dövlət tərəfindən nəzarət edilir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-uşaq siyasəti ölkəmizdə uşaqlara xüsusi diqqət və qayğı ilə yanaşmağa, onların sağlamlığına, təhsilinə, yüksək mənəvi-əxlaqi, milli dəyərlər əsasında təlim-tərbiyə alaraq hərtərəfli inkişafına xidmət edir.

Ümummilli lider Heydər Əliyevin "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır" şüarını rəhbər tutaraq uşaqların yetişməsinə, onların təhsil almalarına hər zaman dövlət tərəfindən xüsusi dəstək göstərilir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkədə uşaqlara dövlət qayğısının gücləndirilməsi, onların problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalayıb. Həmin sərəncama görə, 2009-cu il "Uşaq İli" elan olunub. Bu sərəncamla uşaqların problemlərinin həlli istiqamətində müxtəlif layihələr reallaşdırılıb.

Ulu öndər Heydər Əliyevin ideyalarını fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum uşaqlara diqqət və qayğı ilə yanaşması cəmiyyətdə böyük rəğbət doğurur. Mehriban Əliyevanın Heydər Əliyev Fondu tərəfindən təhsil və sosial xidmət müəssisələrinin inşası, onların müasir tələblərə uyğun şəkildə yenidən qurulması, həmçinin digər sahələrdə də görülən işlər, gerçəkləşdirilən layihələr, proqramlar isə özünün uğurlu nəticələri ilə böyük sevinc və razılıqla qarşılanır.

Ölkəmizdə uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində fond tərəfindən silsilə tədbirlər keçirilir. Məhz bu nüfuzlu qurumun təşəbbüsü ilə qaçqın və məcburi köçkün ailələrindən olan, eləcə də imkansız uşaqlara xüsusi diqqət ayrılır.

Uşaq hüquqları ilə bağlı Avropada, Qərbdə bir çox hüquqi sənədlər qəbul edilib. İlk belə sənəd olan "Uşaq Hüquqları haqqında Konvensiya" Beynəlxalq Qadınlar Federasiyasının təşəbbüsü ilə hələ 1949-cu ildə BMT tərəfindən qəbul edilməsinə baxmayaraq, bu gün dünyanın bir çox yerlərində uşaq hüquqlarının pozulması hallarına davamlı şəkildə rast gəlirik. Belə hallarla işğalçı Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan uşaqları da üzləşib. Ancaq özünün Qərbə inteqrasiya iddialarını ortaya qoymuş, demokratik inkişaf yolunu, hüquqi dövlət prinsiplərini prioritet elan etmiş Azərbaycana qarşı erməni təcavüzü nəticəsində çoxsaylı insan hüquq və azadlıqlarının, o cümlədən uşaq hüquqlarının pozulması hallarına indiyədək həmin Qərbdə göz yumulur, müvafiq beynəlxalq təşkilatlar tərəfindən adekvat reaksiya verilmir.

Təcavüzkar erməni millətçilərinin Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qurbanları sırasında uşaqlar da var. 1992-ci ildə Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımı zamanı qətlə yetirilmiş 613 nəfərdən 63-ü məhz uşaqlar olmuşdur. Bununla yanaşı, 8 ailənin tamamilə məhv edilməsi nəticəsində 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 76 uşaq yaralanmışdır.

Bütün uşaqların normal, təhlükəsiz şəraitdə və sağlam ətraf mühitdə yaşamaq, təhsil almaq hüquqlarının reallaşdırılması üçün hər birimiz əlimizdən gələni əsirgəməməliyik. Bunun üçün uşağın normal ailəsinin olması əsas şərtlərdəndir. Ailədə övladın yaxşı tərbiyəsi isə valideynlərin ümdə vəzifələrindən olmalıdır. Onlar cəmiyyət üçün yararlı, sağlamdüşüncəli, sağlam əqidəli, vətənpərvər, bəşəri dəyərlər əsasında tərbiyə olunan, xalqa, dövlətçiliyə sadiq övladlar kimi yetişdirilməlidirlər.

Uşaqlara bütün sahələrdə göstərilən qayğı cəmiyyət üçün layiqli, faydalı, öz hüquqlarını bilən və onları müdafiə etməyi bacaran şəxsiyyət yetişdirmək kimi çox ülvi bir məqsədə xidmət etməlidir. Biz uşaqları elə tərbiyə etməliyik ki, öz hüquqlarını tanısınlar, heç kimin onları təsir altına salmasına, istismara və zorakılığa məruz qoymasına imkan verməsinlər.

Gələcəyimizin qarantı olan ən qiymətli xəzinəmiz - övladlarımızı vətənini, millətini sevən, dövləti üçün çalışan bir şəxsiyyət, həyatın çətinliklərinin öhdəsindən gəlməyi bacaran, özünəinamlı, özü qərar verə bilən, təşəbbüskar, geniş düşüncəli, fədakar və istedadlı bir gənc kimi yetişmələrini təmin etmək bizim ümumi vəzifəmiz və məqsədimizdir.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

Respublika .- 2022.- 1 iyun.- S.15.